

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (21.418)

14 yanvar 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul edib.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından danışılıb, ölkələrimiz arasında bir çox sahələrdə tərəfdaşlıq münasibətlərinin qurulmasından məmnunluq ifadə olunub. Zəngin tarixə malik olan enerji sahəsində əməkdaşlığın ABŞ-ın dəstəyi ilə daha da genişləndirilməsinin önəmi qeyd edilib. Beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinin əhəmiyyəti vurğulanıb, ölkəmizdə gedən demokratik proseslər və bunun perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı, həmçinin regional vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilib.

İkitərəfli münasibətlərin hazırkı vəziyyətinin təhlil olunduğu görüşdə əməkdaşlığımızın bundan sonra da möhkəmləndirilməsinin vacibliyi bildirilib.

## Naxçıvan: quruculuq və inkişaf dövrü

***Zaman ötdükcə Azərbaycanı inkişafa qovuşduran, müstəqilliyimizi əbədi edən ulu öndər Heydər Əliyev yolunun bəhrələrini bir daha görürük. Ümummilli liderin siyasi xəttini əzmlə davam etdirmək, xalqın işıqlı gələcəyini qurmaq isə, sözün əsl mənasında, əzəmətli dağın zirvəsinə rahat yol salmaq qədər məsuliyyətli və çətin bir işdir.***



Blokada, çətinliklər, quruculuq və inkişaf. Bunlar qədim Naxçıvan torpağının yeni tarix səhifəsindəki ən iri başlıqlarıdır. Hər biri bir kəlmə olsa da, onların arxasında blokada çətinliklərindən yeni imkanların yaradılmasınadək, dağılmış iqtisadiyyatdan güclü iqtisadiyyatın qurulmasınadək, enerji asılılığından enerji təhlükəsizliyinin təmin olunmasınadək, çörək növbələrindən ərzaq təhlükəsizliyinədək və adlarını sadalamadığımız bir çox vəzifələr və onları reallığa çevirən gərgin zəhmət dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə inkişafın yeni mərhələsinə qədəm qoyan Naxçıvanda blokada xofu tarixə çevrilmiş və yeni bir eranın – quruculuq və inkişaf dövrünün əsası qoyulmuşdur. Məhz bu illər ərzində təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da nümunə kimi göstərilən inkişafın Naxçıvan modeli yaradılmışdır.

İstifadəyə verilən yüzlərlə təhsil və səhiyyə müəssisəsi, inzibati və yaşayış binaları, abadlığı və gözəlliyi ilə bir-birilə yarışa girmiş kənd yaşayış məntəqələri, tikilən və ya yenidən qurulan məscidlər, bərpa və restavrasiya olunan tarixi abidələr, yenidən qurulan müasir yollar və körpülər, salınan minlərlə hektar yaşıllıqlar, yaradılan çoxsaylı istehsal müəssisələri, rahat və müasir nəqliyyat infrastrukturu, dayanıqlı enerji təminatı müasir Naxçıvanın reallıqlarıdır. Ən əsası isə odur ki, bu kompleks inkişaf insanların düşüncəsinə də təsirsiz ötüşməyib. Məsələn, bu diyarın insanları təmizliyə hər zaman diqqət edirlər. Çünki insanlar buna adət ediblər. Bu diyarda cinayət hadisələri, demək olar ki, baş vermir. Çünki insanlar buna meyilli deyillər. Bu diyarda insanlar dini-mənəvi dəyərlərə böyük önəm verirlər, milli dəyərləri yaşadırlar. Çünki bu dəyərlər qarşısında vəzifəsindən və cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hamı bərabər hesab olunur, milli dəyərlər, xalq sənətkarlığı sahələri qorunub saxlanılır.

Müasir Naxçıvanın inkişafında çox xarakterik xüsusiyyətlər vardır. Əvvəllər Naxçıvanın gözəl bağları, duzu, mineral suları haqda çox deyilmiş, çox yazılmışdır. Bunlar bu gün də vardır. Amma Naxçıvanın şöhrətini hər yerə yayan təbii sərvətlərin bu torpağın əsl sahiblərinə rifah gətirməsi, onların süfrəmizin bəzəyinə, yollarımızın rahatlığına, evimizin istisinə, bir sözlə, milli sərvətimizə çevrilməsi məhz bugünkü inkişafın bəhrəsidir. Naxçıvanda sübut olundu ki, sərmayə qoyulduqda bu torpağın çınqılından, çay daşından tutmuş qızmar Günəşinədək hər bir nemətin dəyəri vardır. Bəli, sən demə, üst-üstə qoyulduqda Naxçıvanın hər daşında bir qala əzəməti, bir qala qüruru var. Məhz xalqın qəlbində bu qüruru yaşatmaq əzmi idi ki, Naxçıvan qaranlıq gecələrdən işıqlı sabahlara çıxdı. Həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etdi, iqtisadiyyatın dinamik inkişafına təkan verdi. Bunu, sadəcə, bir fakta nəzər yetirməklə təsdiq etmək mümkündür: bu gün muxtar respublikanın inkişafını əks etdirən ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 465 milyon manatı ötüb.

Sənayenin üstün inkişafını nəzərdə tutan müasir iqtisadiyyatın formalaşmasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılması mühüm əhəmiyyət daşıyır. Mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, yeni müəssisələrin yaradılması nəticəsində muxtar respublikada sənaye müəssisələrinin sayı 441-ə çatmışdır. Yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırmış, idxalın həcmini isə azaltmışdır. Təkcə 2015-ci ildə muxtar respublikada 316 milyon ABŞ dollarından artıq həcmdə sənaye məhsulu ixrac olunmuşdur. Digər tərəfdən yaranan hər istehsal və xidmət sahəsi onlarla yeni iş yeri deməkdir. Başqa sözlə, bu sahənin inkişafı həm də əhalinin etibarlı məşğulluğuna təminat yaratmışdır. Böyük sənaye və istehsal müəssisələrinin fəaliyyətə başlaması, sahibkarlığın inkişafı ötən 20 ildə 85 min 861 yeni iş yerinin açılmasına, insanların öz kəndində, şəhərində işlə təmin olunmasına imkan vermişdir.

Muxtar respublikada əhalinin etibarlı ərzaq təminatı ilə bağlı qəbul olunmuş mühüm dövlət proqramlarının icrası nəticəsində Naxçıvanda ərzaq təhlükəsizliyi tam təmin olunmuşdur. Bu gün muxtar respublikada 361 növdə məhsul istehsal olunur, 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Bütün bunlar infrastrukturu çağdaş dünya standartları səviyyəsində yeniləşdirilən Naxçıvan həqiqətləridir. Həqiqət budur ki, tarixin heç bir dönəmində belə geniş, rahat yolları, hər gün, hər ay, hər il sayı artan müasir binaları, memarlıq inciləri, abad küçələri, bağları, parkları, seyrəngahları olmayıb Naxçıvanın. Tarixin heç bir dövründə belə müasir məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları görməyib Naxçıvan. Tarixin heç bir dövründə tutumu min tonlarla ölçülən taxıl anbarları, xüsusi mühafizə olunan təbiət əraziləri, sututarları, ixracyönümlü keyfiyyətli məhsullar istehsal edən nəhəng sənaye müəssisələri olmayıb Naxçıvanın. Bəli, Naxçıvan tarixinin heç bir dövründə öz tələbatını yerli istehsal hesabına ödəyə bilməyib, sərhədləri etibarlı qoruyan belə güclü orduya, güclü iqtisadiyyata sahib olmayıb. Həqiqət budur ki, Naxçıvan tarixin heç bir dövründə belə güclü olmayıb.

Naxçıvanda ordu quruculuğuna xüsusi diqqət yetirilir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələri ən müasir hərbi potensiala, vətənpərvər və peşəkar şəxsi heyətə malikdir. İstər Naxçıvan şəhərində, istərsə də dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən hərbi hissələrdə nümunəvi xidmət şəraiti yaradılmışdır. Əsgər və zabitlərimiz düşmən qarşısında mətin və mübariz dayanmışlar. Muxtar respublikada ordunun gücünü təsdiq edən əsas amillərdən biri də dövlət-ordu-xalq birliyidir. Hərbi qulluqçular həm dövlətimiz, həm də xalqımız tərəfindən hörmət və qayğı ilə əhatə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında ulu öndərin yolunun uğurla davam etdirilməsi iqtisadi inkişaf göstəricilərinin sosial və humanitar sahəyə də transformasiya etdirilməsinə, muxtar respublikanın regional siyasətdə diqqət mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Əhalinin həyat səviyyəsinin yaxşılaşması məskunlaşmanı artırmış, insanlar öz yurd yerlərinə daha sıx tellərlə bağlanmışdır. Bir faktı qeyd edək ki, ötən il muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 370 min 878 kvadratmetr yaşayış sahəsi tikilmişdir. Yeni mənzillərin tikilməsi kənddə də, şəhərdə də eyni səviyyədə aparılır. Yaradılan müasir infrastruktur, istifadəyə verilən rahat yollar, sosial obyektlər, xidmət sahələri ən ucqar dağ kəndinə də şəhər görkəmi və rahatlığı bəxş etmişdir.

Hər bir diyarın inkişaf səviyyəsini təsdiqləyən mühüm amillərdən biri də onun turizm potensialıdır. Qədim şəhər mədəniyyətinə malik, gözəl təbiəti, tarixi-memarlıq abidələri, zəngin mədəniyyəti, özünəməxsus mətbəxi, müasir inkişafı ilə dünyanın dörd bir tərəfindən gələn insanları valeh edən Naxçıvana hər il 400 minə yaxın turist gəlir. Bu gün artıq Naxçıvan dünya elminə sanballı töhfələr verən müxtəlif konfransların, beynəlxalq əhəmiyyətli idman yarışlarının və görüşlərin keçirildiyi etibarlı bir məkandır. Burada təmin olunmuş sabitlik, insan hüquq və azadlıqlarının qorunması muxtar respublika sakinləri və gələn qonaqlar tərəfindən razılıq hissi ilə qarşılanır.

Əhalidə işgüzar sahibkarlığa meyil, yeni layihələrin reallaşdırılması üçün innovativ təşəbbüslər və təhsilin keyfiyyətindəki yüksək dinamika Naxçıvanın müasir inkişafını xarakterizə edən əsas cəhətlərdəndir. Bu gün Naxçıvanda vətənpərvər, təhsilli və geniş dünyagörüşlü gənclər yetişdirilir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə dövlət gənclər siyasəti uğurla həyata keçirilir, insan kapitalı yaradılır. Son illər istifadəyə verilən yüzlərlə məktəb binası, idman obyekti, mədəniyyət müəssisəsi, salınan universitet şəhərcikləri bir məqsədə – ölkəmizin gələcəyinin təminatçıları olan istedadlı, bilikli və vətənpərvər gənc nəslin yetişdirilməsinə hesablanıb. Artıq Naxçıvandan ali məktəblərə qəbulda ölkə birincilərinin çıxması heç də təəccübləndirici deyil. Belə ki, təkcə ötən il muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunlarından biri ən yüksək nəticə göstərmiş, 313 abituriyent 500-700 arası bal toplamışdır. Bundan başqa, dövlət qurumları tərəfindən muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri ixtisaslarına uyğun olaraq hamiliyə götürülmüşdür. Nəticədə, Naxçıvanda tələbə-gənclik peşəkar mütəxəssis kimi yetişir, təhsilini başa vurduqdan sonra məşğulluq problemi ilə üzləşmir.

Elm, ədəbiyyat və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, milli dəyərlərin və xalq yaradıcılığının yaşadılması istiqamətində görülən işlər böyük əhəmiyyətə malikdir. Tarixi abidələrin bərpası, arxeoloji tədqiqat işlərinin genişləndirilməsi tariximizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Hər il Naxçıvanın tarixi, mədəniyyəti, ekologiyası, təbii sərvətləri və xalq yaradıcılığından bəhs edən çoxsaylı kitablar nəşr olunur.

Naxçıvanın qədim tarixi vardır. Lakin bu gün həm də Naxçıvanın yenidən yazılan tarixi vardır.

Ardı 2-ci səhifədə

Bəşəriyyətin yaranış dövrünə səs salan Gəmiqayada, Dədə Qorquddan soraq verən Əlincəqalada, orta əsrlər dövrünə çıraq tutan Gülüstanda və bunlar kimi onlarla abidədə aparılan bərpa işləri Naxçıvanın müasir inkişafı ilə vəhdət təşkil edərək tarixə möhtəşəm səhifələr yazır.

Naxçıvanda iqtisadiyyatın bütün sahələrində, eləcə də dövlət idarəçiliyində yeni texnologiyalardan istifadə olunur, elektron hökumət portalı fəaliyyət göstərir. Bu gün Tiviyə, Şadaya, Gömürə, Şahbulağa və bunlar kimi yüzlərlə ucqar dağ kəndlərinə fiber-optik xətt çəkilir. Naxçıvan şəhərində də, ən ucqar dağ kəndində də insanlar sürətli və genişzolaqlı internetdən istifadə edir, rəqəmsal formatda televiziya kanallarını izləyirlər. Yaşayış məntəqələrinin 98 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti göstərilir.

Bəlkə də, ötən əsrin ağrılı-acılı günlərini yaşayan orta və yaşlı nəslin nümayəndələrinə desəydilər ki, vaxt gələcək Naxçıvanda Günəş Elektrik Stansiyası tikiləcək, daimi işıq, qaz, su, dayanıqlı rabitə xidməti yaradılacaq, beynəlxalq səviyyəli yollar salınacaq, ən ucqar kənddə belə müasir məktəblər istifadəyə veriləcək, ərzaq təhlükəsizliyi və məşğulluq problemi öz həllini tapacaq, onlar, sadəcə, bu deyilənlərin xəyalını qurardılar. Ancaq inkişafın Naxçıvan modeli təsdiq etdi ki, əzmkarlıq, xalq və vətən sevgisi qarşısıalınmaz qüvvədir. O qüvvə ki, xəyalını belə çətinliklə qurduğumuz işləri reallığa çevirmişdir. Bir anlığa dönüb geriyə baxanda, müstəqillik illərimizin ilk dövrlərindən başlayaraq Naxçıvanın yaşadığı çətin imtahan dolu günlərin arxada qaldığını görəndə hər günün nə qədər mənalı və zəngin olduğu gözlər önündə canlanır. Artıq Naxçıvanda görülən işlər hansısa sərt çatışmazlığın həllinə deyil, ümumregion əhəmiyyətli layihələrin həyata keçirilməsi, ərzaq, enerji və məşğulluq kimi məsələləri özündə birləşdirən iqtisadi təhlükəsizliyin təmin olunmasına yönəldilmişdir.

Dünya ölkələrinin hər birində inkişafın müxtəlif istiqamətləri vardır. Ancaq yuxarıda sadaladıqlarımız da daxil olmaqla, ümumilikdə, inkişafın Naxçıvan modelinə rast gəlmək çətindir. Naxçıvandakı inkişafın, özü də blokada şəraitindəki inkişafın, sabitliyin bir səbəbi vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir”.***

**“Şərq qapısı”**

*Ötən əsrin sonlarından başlayaraq muxtar respublikanın iqtisadiyyatında müşahidə olunan sabit artım templəri onun sosialyönümlü inkişafını təmin edib, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaradıb. Son 20 il ərzində əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyətli uğurlar qazanılıb, keçid dövrünün ilkin mərhələsində üzləşilən iqtisadi və sosial problemlər öz həllini tapıb. Bazar iqtisadiyyatı münasibətlərinin təşəkkül tapması, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli işgüzar mühitin yaradılması istiqamətində atılan önəmli addımlar əmək bazarı və məşğulluq sahəsində irəliləyişlərin əldə olunmasına rəvac verib.*

## Muxtar respublikada əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin beşillik strateji istiqamətləri müəyyənləşdirilib

*“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” məşğulluğun artırılması istiqamətində əhəmiyyətli nailiyyətlərin əldə olunmasına şərait yaradacaq*

Beləliklə, müstəqillik illərində aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Muxtar respublikada bütün resurslardan, o cümlədən əmək ehtiyatlarından səmərəli istifadəni təmin etməklə, iqtisadi cəhətdən güclü və yüksək sosial standartlara malik cəmiyyətin qurulması bu mərhələnin əsas məqsədidir. Bu mənada, muxtar respublikanın demoqrafik inkişafına paralel olaraq əhalinin məşğulluğunun artırılması üçün elmi surətdə əsaslandırılmış dövlət proqramlarının həyata keçirilməsi uğurlu nəticələrlə yadda qalıb. Muxtar respublikada əmək bazarının tənzimlənməsində və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi və 2014-2015-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası mühüm rol oynayıb. Belə ki, 1996-cı ildən bu günə kimi muxtar respublikada 85 min 861 yeni iş yeri açılıb ki, bunun da 59 min 90-ı və ya 68,8 faizi daimi iş yerləridir. Əgər 1995-ci ilin sonuna məşğulluq xidmətlərində rəsmi işsiz statusu alanların sayı 5 min 211 nəfər təşkil edirdisə, hazırda bu göstərici sıfır səviyyəsinə endirilib, əmək bazarında sabitlik təmin olunub.

Konkret olaraq “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası nəticəsində muxtar respublikada 6 min 364 yeni iş yeri açılıb, 5 min 537 işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilib, 627 nəfər ictimai işlərə göndərilib, əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün təşkil olunan peşə kurslarına 7 min 595 nəfər cəlb edilib. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılıb, 158 nəfər kvota yerlərinə, sağlamlıq imkanları məhdud 171 nəfər münasib işlərə göndərilib, məhdud fiziki imkanlı 161 nəfər peşə kurslarına cəlb edilib. Yeni iş yerlərinin yaradılması üçün sahibkarlığın inkişafına dövlət dəstəyi davam etdirilib, bu məqsədlə 82 milyon 286 min manat güzəştli şərtlərlə kreditlər verilib. Qeyd olunan dövrdə əhalinin gəlirləri 3,5 faiz artıb.

Bu gün muxtar respublikamızın əmək potensialından daha səmərəli istifadə edilməsi dövlətimizin diqqət mərkəzindədir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il yanvarın 11-də imzaladığı Sərəncam ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” önümüzdəki 5 il ərzində qədim diyarımızda məşğulluq siyasətinin əsaslarını müəyyən edir.

Dövlət proqramında göstərilən istiqamətlərə nəzər yetirdikdə bir daha aydın olur ki, müasir mərhələdə dövlət məşğulluq siyasətinin davam etdirilməsinin əsas məqsədi əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin edilməsi, əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılması, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılmasıdır. Peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi də əsas məqsədlərdəndir.

Naxçıvanın malik olduğu mövcud potensial yeni mərhələnin hədəflərinə çatmağa imkan verəcəkdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının Naxçıvanda uğurla həyata keçirilməsi isə qeyd olunan hədəf və məqsədlərin daha tez reallaşmasına etibarlı zəmin yaradır.

Dahilər yurdunda inkişaf strategiyasının əsas xüsusiyyətlərindən biri onun sosial-əmək potensialından səmərəli istifadə edilməsi, iqtisadi cəhətdən aktiv əhalinin işgüzar və yaradıcı təşəbbüskarlıqlarının artırılmasına yönəlmiş əməli tədbirlərin, əməyin sosial cəhətdən effektiv təşkilidir. Mövcud dünya təcrübəsi də sübut edir ki, sürətli tərəqqinin əsas bazis elementlərindən biri əmək potensialından səmərəli istifadənin təşkil olunması, iqtisadi fəaliyyət üçün lazımi şəraitin yaradılması, işçi qüvvə əmsalının yüksək göstərici ilə ifadə olunmasıdır. Bu mənada, muxtar respublikamızda fərdi və ictimai tələblərin ödənilməsi ilə həyata keçirilən çeviklik, mobillik və rasionallıq kimi mühüm prinsipləri özündə ehtiva edən məşğulluq strategiyası əmək resurslarından səmərəli istifadə olunmasında önəmli rol oynayacaqdır.

Bu baxımdan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi istiqamətində atılan növbəti əhəmiyyətli bir addımdır. Böyük önəmə malik olan yeni dövlət proqramı əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edəcəkdir.

Dövlət proqramında muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi, aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi, əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə ardıcıl işlərin görülməsi, işçilərin əmək hüquqlarının təmin edilməsi, işaxtaranlara təşkil olunacaq peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatlandırılması nəzərdə tutulub. Göründüyü kimi, konkret hədəfləri və istiqamətləri müəyyənləşdirən bu proqramın icrası işçi qüvvəsinə tələbatın stimullaşdırılmasına, səmərəli işgüzarlıq mühitinin formalaşmasına, investisiya fəallığının daha da artırılmasına və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsinə şərait yaradacaqdır. Bütün bunlar o deməkdir ki, proqramın icra müddətində muxtar respublikamızda iqtisadi cəhətdən məşğul əhalinin sayı daha da artacaq, əmək potensialının reallaşması prosesi daha geniş miqyas alacaq, insanların maddi rifah halı yüksəlməkdə davam edəcəkdir.

Ötən dövr ərzində müvafiq dövlət proqramlarının uğurlu icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaratdığını nəzərə aldıqda, əminliklə demək olar ki, 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması istiqamətində əhəmiyyətli nailiyyətlər əldə olunacaqdır. Yeni dövlət proqramı qeyd olunan istiqamətdə əldə olunan nailiyyətlərin miqyasını daha da genişləndirəcək, əhalinin məşğulluq səviyyəsini daha da yüksəldəcəkdir.

**✍ Rauf ƏLİYEV**

## Sınaq-test imtahanının nəticələri müzakirə edilib



***Şərur Rayon Təhsil Şöbəsində IX-X-XI siniflər üzrə sınaq-test imtahanlarının müzakirəsinə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev bildirib ki, inkişaf etmiş ölkələrdə təhsilə strateji sahə səviyyəsində baxılır. Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında son illərdə bu sahədə qazanılan uğurların getdikcə artması da təhsilə həmin prizmadan yanaşılmasıdır.

Nazir qeyd edib ki, təhsilin səviyyəsinin yüksəldilməsi xeyli dərəcədə keyfiyyət amilindən asılıdır və muxtar respublikada bu məsələ diqqət mərkəzində saxlanılır, təhsil müəssisələrində müasir iş şəraitinin yaradılması, onların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, digər məqsədyönlü tədbirlərə də böyük önəm verilir. Məktəb və rayondaxili, muxtar respublika səviyyəli, müxtəlif formalı bilik yarışlarının, imtahanların keçirilməsi də bu məqsədə xidmət edir. Belə tədbirlər sırasında sınaq-test imtahanları da var və son illərdə belə imtahanların keçirilməsi ənənə şəklini alıb.

Nazir diqqətə çatdırıb ki, son illər muxtar respublikanın tam orta təhsil müəssisələri şagirdlərinin bilik və bacarıqlarının üzə çıxarılması məqsədilə təşkil edilən həmin imtahanlarda şəffaflıq təmin olunub. Şagirdlərin biliyinin obyektiv qiymətləndirilməsinə diqqət artırılıb.

Vurğulanıb ki, zəif nəticə göstərən məktəblər və şagirdlər üçün əlavə tədbirlərin həyata keçirilməsi öz töhfələrini verir. Şərur rayonunda sınaq-test imtahanlarının günün tələblərinə uyğun təşkili diqqət mərkəzində saxlanılır. Rayonun pedaqoji kollektivləri bu sahədə mövcud olan nöqsanları aradan qaldırmalı, qazanılan uğurları artırmalıdırlar.

Sonra çıxış edən rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov bildirib ki, 27 dekabr 2015-ci il tarixdə keçirilmiş sınaq-test imtahanında 599 şagird iştirak edib. Onların 46 nəfəri 500-700 intervalında bal toplayıb. I ixtisas qrupu üzrə Muğancıq-Mehrab kənd tam orta məktəbinin şagirdi Tuncay Əliyev 614 bal, II ixtisas qrupu üzrə Aralıq kənd tam orta məktəbinin şagirdi Vüsal Quliyev 619 bal, yenə eyni məktəb və ixtisasdan Hacı Hacızadə 604 bal, IV ixtisas qrupu üzrə Oğlanqala kənd tam orta məktəbindən Səma Qurbanova 657 bal, Yengicə kənd məktəbinin şagirdi Şəhla Rüstəmova isə 622 bal toplayıblar. Zaur Həsənov sınaq-test imtahanlarında müşahidə edilən nöqsanlardan da danışıb.

Tədbirə yekun vuran təhsil naziri Piri Nağıyev həmin nöqsanların tezliklə aradan qaldırılmasının vacibliyindən və qarşıda duran vəzifələrdən bəhs edib.

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



“Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Yanvarın 13-də keçirilən mərasimi Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov açıq elan edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin də maddi-texniki təminatı gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Yaradılmış şərait çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verir. Ordumuzun hərtərəfli hazırlığı tezliklə torpaqlarımızın işğaldan azad olunmasına böyük inam yaradıb.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Elnur İsmayılov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn İsmayıl İmanov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Elvin Qasımov Vətənə şərəflə xidmət edəcəklərinə, verilən əmr və tapşırıqları can-başla yerinə yetirəcəklərinə söz verib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclər hərbi xidmətə yola salınıblar.

**Xəbərlər şöbəsi**

Söz yox ki, hamı deyəcək ki, müəllim günümüzün aparıcı qüvvəsi, gənc nəslin tərbiyəsi keşiyində dayanan mənsub bir şəxs, sabahımız üçün daha çox əmək sərf etməli olan ziyalı qüvvəsi. Bu həmişə belə olubdur. Lakin qəribə də olsa, bu günün müəllimləri dövlət və cəmiyyət qarşısında yerinə yetirməli olan vəzifələrdən başqa, əlavə işlərlə də məşğul olurlar. Məsələn, indi hamının müəllim deyə çağırdığı, hörmət, izzət göstərdiyi şəxslərin bir çoxu piştaxta arxasında dayanaraq özləri demişkən "çak-çux" edirlər. Bu əməllərinə çox vaxt haqq qazandıraraq dolanmaq üçün bu cür işlərlə məşğul olduqlarını söyləyirlər. Düzdür, iqtisadi vəziyyət bu gün müəllimlərin də həyat tərzinə, dolanışığına ciddi təsir göstərmişdir. Yaxşı haldır ki, respublikamızın Prezidenti Heydər Əliyev müəllimlərin əməyi, yaşayışı ilə həmişə maraqlanır, onların vəziyyətini yaxşılaşdırmaq üçün imkan daxilində lazım gələn tədbirlər həyata keçirir. Lap elə son vaxtlarda müəllimlərin əməkhaqlarının artırılması, onlara bir sıra imtiyazlar verilməsi bu cür təqdirəlayiq hallardır. Amma bununla da kifayətlənməyən müəllimlər kiçik müəssisə, kooperativ və ya mağaza açaraq alverlə məşğul olurlar. Özləri azmış kimi, məktəbyaşlı uşaqlarını da bu işə təhrik edirlər. Sonra isə məktəbə gəlir, hər gün çiyin-çiyinə vərərək bazarda, yarmarkada alver etdiyi uşaqlara mənəviyyatdan, vətəndaşlıq borcundan, insani keyfiyyətlərdən dərs deyirlər.

## Naxçıvan dünən

# Bu günün müəllimi kimdir?

Alver olan yerdə hər cür hadisə ilə qarşılaşmaq mümkündür. Malını baha satmaq istəyən hər bir adam yalan da danışmalı, qiymətdə saxtakarlıq etməli, riyakarlıq donuna da girməlidir. Dəfələrlə bu cür hallarla qarşılaşan müəllim sabah dərs dediyi şagirdlərə həqiqətdən, təmizlikdən, vicdan borcundan ağızdolusu danışır. Əgər cəmiyyətin gələcəyi olan bugünkü şagirdlərin tərbiyəsi müəllimi düşündürmürsə, onda vay bu xalqın halına. Çünki asan qazanc yolunu üstün tutan müəllimin heç vaxt yüksəkkeyfiyyətli dərsindən, şagirdlərə fərdi yanaşmaq prinsipindən danışmaq mümkün deyildir. Belələri heç dərslərinə də vaxtlı-vaxtında gəlmirlər. Öhdələrində olan 45 dəqiqəni isə birtəhər başa vuraraq qazanc dalınca getməyi daha üstün tuturlar. Bu kimi halların nəticəsidir ki, indi gənc nəsildə elmə, savada olan maraq daha da azalıb. Qəbul imtahanları zamanı şagirdlərin bilik səviyyəsinin çox aşağı olması dəfələrlə qeyd edilmişdir. Halbuki hər bir xalqın gələcəyi, onun mənəvi zənginliyi və dəyəri gənclərin yüksək savadından, dünyagörüşünün geniş olmasından asılıdır. Bu gün bəzi yas məclislərində müəllimlərimizin mollalıq etdiklərinin də şahidi oluruq. Əgər dinimizi, onun qanun-qaydalarını, şəriətimizin yol verdiyi əməlləri dərindən bilirsə, onda müəllimliyi atıb bu işlə məşğul olmağında bir o qədər də günah bilməzdik. Amma dərd orasındadır ki, yarımçıq müəllimliyi kimi, elə mollalığı da bitkin deyildir.

Bu günlərdə Bakı şəhərində Respublika Sarayında keçirilən ümumxalq toplantısı xalqın həmrəyliyə, birliyə çağırışı, yığıncağı idi. Burada tutduğu vəzifəsindən, daşıdığı əqidəsindən asılı olmayaraq, hamı üçün qarşıda duran vəzifələr açıq-aydın müəyyənləşdirilmişdir. Müharibə şəraitində yaşayan respublikamızın bugünkü vəziyyəti ziyalıların aparıcı qüvvəsi olan müəllimləri daha çox düşündürməlidir. Onlar adamların qarşıdurmasına mane olmaq üçün xalq arasında geniş izahat işləri aparmalı, onları düzgün yola istiqamətləndirməlidirlər. Çünki müstəqilliyə yenicə qədəm qoymuş respublikamızın daha da möhkəmlənməsi üçün onların məqsədyönlü fəaliyyəti çox böyük səmərə verər. Müəllimlərimizi bu gün bax bu istiqamətdə iş aparan adamlar içərisində görmək istəyirik.

**"Şərq qapısı" qəzeti**
***1995-ci il, 9 avqust***

***Əziz oxucum! 20 il bundan əvvəl qələmə alınmış bu yazını təsirsiz oxumaq qeyri-mümkündür. O illərdə bir müəllimin ürəkağrısı ilə yazdığı bu sətirləri oxuduqca Naxçıvan müəllimlərinin dünənini və bu gününü müqayisə edirsən. Və o illərdə müəllimlərin yaşadığı çətinlikləri göz önünə gətirəndə, sözün əsl mənasında, dəhşətə gəlirsən. Bütün dövrlərdə bu peşə daim uca tutulmuş, müəllimlərə hətta dünyanın ən böyük dahiləri ehtiram göstərmişlər. Sadə olduğu qədər də çətin və şərəfli peşə sahibləri təkcə bilik, savad öyrətmirlər, ən başlıcası, cəmiyyətə kamil insan, saf məfkurəli vətəndaş yetişdirirlər. O illərdə müəllimlərimizin yaşadığı çətinliklər az olmayıb. Dövrün gətirdiyi çətinliklər bu peşə sahiblərini də usandırmışdı. Ona görədir ki, həmin illərdə müəllimlərin nüfuzunun aşağı enməsi və başqa məsələlər qəzet səhifələrində özünə yer alırdı.***

## və bu gün

# Naxçıvanın müəllimləri yüksək savadlı və vətənpərvər gənclər yetişdirir

Məhz 20 ili arxada qoyan Naxçıvan müəllimi kimdir? O, hansı diqqət və qayğı ilə əhatə olunub? Yenə 20 il bundan əvvələ qayıdırıq. Həmin dövrdən müəllimlərimiz üçün yeni günlər başladı. Müəllimin şərəfli adının uca tutulması, onun fəaliyyətinə hərtərəfli şəraitin yaradılması üçün müxtəlif tədbirlər həyata keçirildi. Çünki yüksək savadlı, intellektual səviyyəli müəllimlər olmadan cəmiyyətin fasiləsiz inkişafını təmin etmək mümkün deyildir. Bütün bunlar nəzərə alınaraq bu gün regionda müəllimin cəmiyyətdə ən nüfuzlu şəxs səviyyəsinə qaldırılması üçün mühüm tədbirlər həyata keçirilir. Əgər muxtar respublikada məktəb tikintisi təhsilə göstərilən qayğının bir tərəfidirsə, müəllimlərin qayğı ilə əhatə olunması işin digər tərəfidir. Bu, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəllim əməyinə verdiyi qiymətdir: ***"Bu gün bizim qarşımızda bir vəzifə durur: Mənəviyyatca təmiz, yüksək savadlı və vətənpərvər gənclər yetişdirmək. Bunun üçün dövlət orqanları nə lazımdırsa həyata keçirir. Və bundan sonra da təhsil müəssisələrinin normal fəaliyyəti üçün bütün tədbirlər görüləcəkdir. Lakin müəllim, pedaqoq əməyi olmadan yaradılan təhsil müəssisələri özlüyündə heç bir məna ifadə etmir".***

Bu illər ərzində müəllimlərə göstərilən diqqət və qayğını konkret faktlarla oxucularımıza çatdıraq. Ən mühüm tədbirlərdən biri müəllim əməyinin qiymətləndirilməsidir. Son illərdə 68 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 90 müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 60 müəllim isə "Tərəqqi" medalı ilə təltif edilmişdir. 2007-ci ildən bu günədək 40 müəllimimiz Azərbaycan Respublikasının ən yaxşı müəllimləri sırasına daxil olaraq beş min manat birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışdır.



Bu illərdə təhsil işçilərinin əməkhaqlarının on dəfədən çox artırılması bu sahəyə daha bir qayğının ifadəsidir. Qeyd edək ki, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlik fəaliyyətinin stimullaşdırılması və onların əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə 1-18 mart 2015-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyası keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il 22 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncam imzalamışdır. Bu, müəllim əməyinə, ümumilikdə, təhsilə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir.

Bu gün muxtar respublikada fəaliyyət göstərən müəllimlər onlar üçün yaradılan şəraitdən razıdırlar.

Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin müəllimi Naibə Mürsəlovanın dediklərindən:

– 40 ilə yaxındır ki, pedaqoji fəaliyyətlə məşğul oluram. Bir müəllim kimi indiki dövrdə fəaliyyət göstərdiyimə görə qürur duyuram. 20 il bundan əvvəl təhsil sahəsindəki gerilmədən ən çox biz müəllimlər əziyyət çəkirdik. Soyuq sinif otaqlarında dərs keçmək dözülməz idi. İndi müasir məktəb binamızda heç bir problemimiz yoxdur. Şagirdlərə yaxşı dərs keçməklə uğur qazanmağa can atırıq. Əməyimiz də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Mən 2006-cı ildə "Tərəqqi" medalına layiq görülmüşəm.

Şərur rayon Şahbulaq kənd tam orta məktəbinin müəllimi Mirabbas Eminov isə deyir:

– Ucqar dağ kəndində müəllim işləmək əvvəllər kiməsə çətin görünə bilərdi. Amma indi şəhərdə fəaliyyət göstərən müəllimlərə yaradılan şəraitlə dağ kəndləri arasında heç bir fərq yoxdur. Çünki eyni şəraitdə şagirdlərə təhsil veririk, eyni qayğını üzərimizdə hiss edirik. Bu dövrdə müəllim kimi işləməyə nə var ki? O illərin şahidi olaraq deyə bilərəm ki, biz müəllimlərin çəkdikləri əziyyətləri sözlə ifadə etmək çətindir. Qapılardan şagird toplamaq bizim üçün bir zülmə çevrilmişdi. Heç bir valideyn övladını şəraitsiz bir məktəbə göndərmək istəmirdi. Boş sinif otaqları bir müəllim kimi ürəyimi yaralayırdı. O çətin günlər arxada qaldı. Bizim də məktəb müasirdir, elektron lövhələrlə, kompüterlərlə, müasir tədris vasitələri ilə təmin olunmuş sinif otaqlarımız var.

Müəllimlərə diqqət və qayğıdan danışarkən 2005-ci ildən etibarən muxtar respublikada hər il ənənəvi olaraq keçirilən təhsil yarmarkalarında işlə təmin olunan gənc müəllimləri də xüsusilə qeyd etməliyik. Təkcə bir faktı deyək ki, ötən il sentyabrın 4-də keçirilən növbəti təhsil yarmarkasında 136 nəfər gənc müəllim təyinatı üzrə məktəblərə göndəriş almış və peşə fəaliyyətinə başlamışdır. İşlə təmin olunan müəllimlərdən Vüsal Abbasovla həmsöhbət oldum:

– Culfa rayonunun Yaycı kəndində anadan olmuşam. Lənkəran Dövlət Universitetinin Coğrafiya ixtisasını bitirmişəm. Təhsilimi başa vurduqdan sonra Culfa rayonunun Gal kəndində əmək fəaliyyətinə başlamışam. Bu məktəbdə coğrafiya fənnini şagirdlərə mənimsədirəm. Kadr çatışmazlığından bu fənn yaxşı tədris olunmayıb. Amma indi mən bir müəllim kimi bunu aradan qaldıracağam. Qəbul imtahanlarında məktəbin şagirdlərinin bu fəndən yüksək nəticə göstərməsi üçün var-qüvvəmlə çalışıram.



Xüsusilə qeyd etməliyəm ki, gənc müəllimlərin sırasında Azərbaycanın digər bölgələrindən olan gənclərimizin də sayı az deyil. Gədəbəydə doğulan Malik və Müşviq Məmmədovlar, Sumqayıt şəhərindən olan Günel Məmmədli, Bakı şəhərindən Rauf İmanəliyev və başqa gənclər bu gün muxtar respublikamızın ucqar dağ kəndlərinin məktəblərində müəllim kimi fəaliyyət göstərirlər.

Bəli, bu günün müəllimi belə diqqət və qayğı ilə əhatə olunmuşdur. Məhz bu cür qayğı əhatəsində olan müəllimlərin yetişdirdikləri gənclərimiz etimadı doğruldur, layiqli vətəndaşlar kimi böyüyürlər. Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. Muxtar respublikada 2014-2015-ci tədris ilində də qəbul imtahanlarında yüksək nəticələr əldə edilməsi, məktəbi bitirən məzunlardan 1582-nin ali məktəblərə qəbul olunması, onlardan 313-nün 500-700 arası bal toplaması dediklərimizin əyani sübutudur.

Sonda qeyd etmək istəyirəm ki, göstərilən belə dövlət qayğısı müəllimlərdən böyük məsuliyyət tələb edir. Yaxşı hal kimi onu da demək lazımdır ki, Naxçıvanda çalışan çoxsaylı müəllim kollektivləri bu həqiqəti dərindən dərk edir, bugünkü şagirdlərin savadlı və vətənpərvər yetişmələri üçün səy və bacarıqlarını əsirgəmirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır. Müəllimlərimiz bütün vasitələrdən istifadə edərək gələcəyimizin təməlinin möhkəm qoyulması üçün çalışmalıdırlar".***

**Sara ƏZİMOVA**

*Culfa rayon Gal kənd tam orta məktəbi*






## *Naxçıvan* dönübdür bir gülüstana

Ay ellər, obalar! Yığışın, gəlin,
Sizə söhbət açım Naxçıvanımdan.
Vətənə layiqli övladlar verən,
Bu qədim torpağın şöhrət, şanından.

Cavid dünyamızın parlaq ulduzu,
Cəlil sözümüzün aynası olub.
Dünyaya tanıdan Azərbaycanı
Ulu öndərimin dühası olub.

Cavid məqbərəsi, Cavid irsinə,
O dahi rəhbərin məhəbbətidir.
Cəlilin, Bəhruzun ev-muzeyləri,
Gələn nəsillərə əmanətidir.

Bəhruz fırçasında Vətən eviniz,
Qədim bir şəhərtək qalxıb, ucalıb.
Böyük Nuh babamın türbəsi burda,
Dünya tarixinə, elmə səs salıb.

Naxçıvan yetirib bir oğul daha,
Yaşayır qəlbində el məhəbbəti.

Onun çağırışıyla xalqım bir olub,
Göylərə qaldırıb bu məmləkəti.

Bu qədim diyarın hər guşəsində,
Onun öz ilməsi, naxışları var.
Tikdiyi məktəblər, çəkdiyi yollar,
Sənət incisitək könüllər oxşar.

İdman mərkəzləri, tibb ocaqları,
Yüz sənət məbədi töhfələridir.
Hər kəndi, şəhəri qoynuna alan,
Ülvi gözəlliklər bəhrələridir.

Bu yolda çox şeylər qazanmışıq biz,
Əmək meydanında uğur, qələbə.
Tikilən, qurulan yadigarlarım,
Xoş gəlir ürəyə, xoş gəlir qəlbə.

Göylərə ucalan neçə abidəm,
Bura gələnləri salır heyrətə.

Yurdumun seyrinə çıxan qonaqlar,
Min əhsən söyləyir burda qeyrətə.

Naxçıvan qədimdir, Naxçıvan cavan,
Hər iki gözəllik burda qoşadır.
Biri müdrikliyim, biri gəncliyim,
Hər biri qoynunda Vətən yaşadır.

Naxçıvan fəxrimdir, Şərur qürurum,
Ordubad, Şahbuzum cənnət bağımdır.
Babəkim, Kəngərlim yeni növrağım,
Culfa Araz üstə bir çırağımdır.

Sədərək bu yerin qeyrət qalası,
Bir vaxtlar üstünə güllələr yağıb.
Qoynunda şırımlar açılan yurdum,
İndi sinəsinə gül-çiçək taxıb.

Ay ellər, obalar! Yığışın, gəlin,
Gəzin Naxçıvanı siz qarış-qarış.

Baxsaz, doymazsınız gözəlliyindən,
Hüsnünə vurulmuş neçə min naxış.

Addımda naz satır çiçəyi, gülü,
Dağların döşündə can dərmanı var.
İçməyə saf suyu, buz bulaqları,
Gəzməyə, görməyə yüz ormanı var.

Naxçıvan axşam da füsunkar olur,
Nağıllı qoynunda bir aləm yaşar.
Sevincdən atılıb-düşən uşaqlar,
Özünü dünyanın xoşbəxti sanar.

Burada hər fəslin gözəlliyi var,
Deyirəm yurduma dəyməsin nəzər.
Hər payız gələndə meyvə bağları,
Neçə toy-düyünün süfrəsin bəzər.

Torpağa sevgidən boy atıb yurdum,
Şöhrəti yayılıb indi hər yana.
Vüqarla, qürurla söyləyir hər kəs,
Naxçıvan dönübdür bir gülüstana.

**Rövşən HÜSEYNOV**

# 2015-ci ilin quruculuq ərməğanları
## *Şəhərləşən kəndlərimiz*


*Naxçıvan şəhərinin Qaraçuq kəndi*


*Sərur rayonunun Püsyan kəndi*


*Şərur rayonunun Axaməd kəndi*


*Culfa rayonunun Bənəniyar kəndi*


*Culfa rayonunun Qızılca kəndi*


*Şərur rayonundakı Kürkənd*


*Babək rayonunun Xal-xal kəndi*


*Ordubad rayonunun Gilançay kəndi*


*Ordubad rayonunun Tivi kəndi*

*İllərdir ki, muxtar respublikamız davamlı xarakter alan tikinti-quruculuq prosesləri hesabına ölkəmizin öndə gedən regionları sırasındadır. Bu proses şəhər və rayon mərkəzləri ilə məhdudlaşmayaraq ən ucqar dağ və sərhəd yaşayış məntəqələrini də əhatə edir. Bu işlər sırasında ən çox diqqəti cəlb edən kəndlərin abadlaşdırılması istiqamətində görülən kompleks tədbirlərdir. Sistemli və düşünülmüş şəkildə aparılan işlərin əsas məqsədi kənd sakinlərinin rahat, firavan yaşayışını təmin etmək, kəndlə şəhər arasındakı fərqi aradan qaldırmaqdır. Qeyd etmək lazımdır ki, kompleks quruculuq tədbirləri çərçivəsində milliliklə müasirliyin vəhdətini özündə əks etdirən təhsil, səhiyyə, mədəniyyət və digər infrastrukturlar üçün yeni binalar inşa edilir, kəndarası yollara asfalt döşənir, kommunikasiya xətləri yenilənir, digər quruculuq işləri həyata keçirilir, yaşıllıq zolaqları salınır.*

*Bütün bunlar muxtar respublikamızın sürətli iqtisadi inkişafının nəticəsi, bariz nümunəsidir. Görülən genişmiqyaslı işlər kənd sakinlərinin torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır, insanların firavan yaşayışını təmin edir.*

*Həyata keçirilən tədbirlərin təməlində Naxçıvanda ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi dayanır.*

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 33